# 2023-cu il üzrə İnklüziv Təhsil Mərkəzi tərəfindən görülmüş işlər haqqında hesabat

## UNEC-də inklüziv tədris prosesinin xüsusiyyətlərinə həsr olunan maarifləndirici tədbir keçirilib

***UNEC İnklüziv Təhsil Mərkəzinin təşəbbüsü ilə professor-müəllim və inzibati heyət üçün "Müasir inklüziv tədris prosesinin xüsusiyyətləri" mövzusunda seminar keçirilib.***

UNEC İnklüziv Təhsil Mərkəzinin koordinatoru Sevinc Məhsimovanın keçirdiyi tədbirdə iştirakçılara inklüziv mədəniyyət, səriştə, funksional və inklüziv savadlılıq problemləri ilə bağlı araşdırmaların, ümumilikdə cəmiyyətin, xüsusilə də ali təhsilin üzərinə düşən inklüziv strategiyalara aid məlumatlar təqdim olunub. Həmçinin inklüzivlik, müxtəlif əqli və fiziki əlilliyi olan şəxslərə, valideyn himayəsindən məhrum olanlara, penitensiar müəssisələrdə saxlanılan və həssas qrupa aid olan digər şəxslərə təhsil prosesində xüsusi yanaşmaların, müxtəlif metod və üsulların tətbiqinin zəruriliyindən bəhs olunub.

UNEC-də inklüziv tədris prosesinin xüsusiyyətlərinə həsr olunan maarifləndirici tədbir keçirilib

## UNEC-də "Uğur əngəl tanımır" layihəsi çərçivəsində əlilliyi olan şəxslərin sərgisi keçirilib

***21-22 fevral tarixində UNEC-də Azərbaycan Gənclər Fondunun dəstəyi ilə "Bacarıqlı Əllər Dünyası" İB, UNEC İnklüziv Təhsil Mərkəzi və UNEC Dizayn Məktəbinin birgə təşkilatçılığı ilə "Uğur əngəl tanımır" layihəsi çərçivəsində əlilliyi olan şəxslərin əl işlərindən ibarət sərgi təşkil olunub.***

Sərgidə İnklüziv Təhsil Mərkəzinin koordinatoru Sevinc Məhsimovanın açılış nitqindən sonra Dizayn kafedrasının müdiri Elfanə Qasımova, "Bacarıqlı Əllər Dünyası" İB-nin sədri Azadə Məmmədova, "Göyərçin" Təhsilin inkişafına Dəstək İB-nin sədri Gülnarə Vəlixanlı, Ekologiya və Təbii Sərvətlər Nazirliyi Yanında İctimai şurasının üzvü Arzu Əliyeva, Sumqayıt Poeziya Evinin rəhbəri İbrahim İlyaslı çıxış ediblər.

Sonra tədbir iştirakçıları əlilliyi olan şəxslərin, eləcə də UNEC Dizayn Məktəbinin tələbələrinin əl işlərindən ibarət olan sərgini ziyarət ediblər.

2 gün davam edən sərgi zamanı UNEC-in tələbələri Leyla İsmayılova (kaman), Ramin Sadıqov (tar) və UNEC-in əməkdaşı Azər Hacıəliyevin (tar) ifalarını iştirakçılar maraqla qarşılayıblar.

UNEC-də "Uğur əngəl tanımır" layihəsi çərçivəsində əlilliyi olan şəxslərin sərgisi keçirilib

## Radio UNEC-də yeni proqram: "İqtisadi psixologiya"

***UNEC İnklüziv Təhsil Mərkəzi tərəfindən Radio UNEC-də "İqtisadi psixologiya" mövzusunda proqrama start verilib.***

Proqramda İnklüziv Təhsil Mərkəzinin mütəxəssisi Aysel Qaragözova iqtisadiyyatla psixologiya arasındakı bağlılıqdan, günümüzün reallığını əks etdirən insan-pul münasibətlərindən və s. danışıb. Həmçinin UNEC-də yeni tədris edilən "Davranış iqtisadiyyatı" fənninin tələbələrə qazandırdığı biliklərdən bəhs edib.

Radio UNEC-də yeni proqram: "İqtisadi psixologiya"

## Radio UNEC-də "Gender bərabərliyi"ndən bəhs olunub

***Radio UNEC-də İnklüziv Təhsil Mərkəzinin mütəxəssisi Aysel Qaragözovanın təqdimatı ilə efirə gedən növbəti mövzu "Gender bərabərliyi" haqqında olub.***

Proqramda gender bərabərliyinin təmin olunmasının inklüziv təhsilin inkişafındakı vacibliyindən bəhs edilib. O cümlədən qadın və kişilərin ailədə yeri və rolu, ailə dəyərlərinin qorunub saxlanılmasından danışılıb.

Radio UNEC-də "Gender bərabərliyi"ndən bəhs olunub

## "Gələcəyin peşələri" Radio UNEC-in efirində

***"Gələcəyin peşələri" proqramının növbəti buraxılışı Radio UNEC-də efirə gedib.***

Proqramda İnklüziv Təhsil Mərkəzinin mütəxəssisi Aysel Qaragözova gələcək peşələrə uyğun ixtisaslı kadr hazırlığı ilə bağlı yenilikləri dinləyicilərlər bölüşüb.

Proqramı hər həftənin çərşənbə günü, saat 11:00-da Radio UNEC-in efirində canlı dinləyə bilərsiniz

"Gələcəyin peşələri" Radio UNEC-in efirində